Elvin Mütaliboğlu

## Bir Gün

Bir gün eşitsən ki ölmüşəm daha
Arxamca ağlama sızlama əbəs
Mənə sağlığımda dəyər vermədin
Ölümüm peşiman edərdimi bəs

Uzatdım havada qaldı əllərim
Tutmadın bir kərə səni var bilim
Səninçün yazdığım bu şeirlərim
Sənsiz oxunmadı lâl oldu dilim.

Vicdanın yük olar öz kürəyində
Qürurun dərd olub özünü qapar.
Gün gələr o soyuq daş ürəyin də
Mənim baş daşımdan təsəlli tapar.

Həsrətim od olar, sən də yanarsan
Bəlkə xəyalına dönərəm sənin.
Hər axşam tez yatıb, gec oyanarsan
Gözlərsən yuxuna girərəm sənin.

Peşiman olmağın ən acı doğru
Ağlama dərdi yaş siləli deyil.
Onsuz da bir daha Mütaliboğlu
Dünyaya təzədən gələsi deyil.